EKOLOJİ TARAZLIĞIN QORUNUB SAXLANMASINA DAİR ONLAYN RESPUBLİKA ELMİ KONFRANSI
səhifə-2-də

26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ SOLO KONSERT TƏŞKİL EDİLİB
səhifə-2-də

“KİMYA” LABORATORİYASINDA SƏRBƏST YODUN ALINMASI TƏCRÜBƏSİ APARILIB
səhifə-2-də

RƏNGLƏRİN CAZİBƏLİ HARMONİYASI
səhifə-3-də

HÜSEYN HƏŞİMLİYƏ ONUN OLMADIĞI DÜNYADAN MƏKTUB
səhifə-3-də

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR
*HEYDƏR ƏLİYEV*



# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
4 iyul 2020-ci il, №2 (31)

## BEYNƏLXALQ “WEB OF SCIENCE” ELMİ MƏLUMAT BAZASININ İMKANLARI VƏ EFFEKTİV İSTİFADƏ QAYDALARINA DAİR VEBİNAR TƏLİM

Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə Clarivate Analytics” Təhsil Şirkətinin Təhsil Proqramları üzrə şöbəsinin rəhbəri Valentin Boqorov beynəlxalq nüfuzlu jurnallara çıxış əldə olunması və effektiv istifadə qaydalarına dair vebinar təlim keçib. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev universitetdə ali təhsilin davamlı inkişafına nail olunması, alimlərin elmi məqalələrinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmasına dəstək göstərilməsi istiqamətində görülən işlər barədə məlumat verib. Qeyd edilib ki, universitetdə elmi dərəcəlilərin sayı 179 nəfərdir. Onlardan 22 nəfəri elmlər doktoru, 157 nəfəri isə fəlsəfə doktorudur. Universitetin 3 əməkdaşı isə AMEA-nın müxbir üzvüdür.

Bildirilib ki, universitet 43 kafedradan ibarət elmi-təşkilati struktura malikdir. 2016-2020-ci illər üçün universitet Elmi şurası tərəfindən təsdiq olunmuş layihəyə əsasən Texnika, Riyaziyyat, Fizika, Biologiya, Coğrafiya, Tibb, Fəlsəfə, Tarix, İqtisad, Siyasət, Hüquq, Pedaqogika, Filologiya, Sənətşünaslıq, Şəhərsalma və Memarlıq elmi istiqamətləri üzrə yerinə yetirilən elmi-tədqiqat işlərinin 60%-i muxtar respublika ilə bağlı olub. Vurğulanıb ki, professor-müəllim heyətinin apardıqları elmi-tədqiqat nəticələri əsasən, universitetin 4 seriyadan ibarət “Elmi əsərlər” jurnalında nəşr olunur. Jurnalın “Humanitar elmlər”, “Fizika-riyaziyyat və texnika elmləri”, “Təbiət və tibb elmləri”, “İctimai elmlər” istiqaməti üzrə hər il 2 nömrə olmaqla 8 nömrəsi nəşr olunur. Qeyd edilib ki, hazırda universitetdə fəlsəfə doktoru proqramı üzrə 109, elmlər doktoru proqramı üzrə 23 nəfər dissertant və doktorant təhsil alır. Fəlsəfə doktoru proqramı üzrə təhsil alanların sırasında əcənəbi dissertantların da olduğu vurğulanıb. Rektor bildirib ki, son 10 ildə universitet əməkdaşlarının 193 monoqrafiyası, 44 dərsliyi, 335 dərs vəsaiti, 522 metodik vəsait və proqramı, 8200 elmi məqaləsi və 1061 tezisi çap olunub. Elmi məqalələrdən 1135-i, tezislərdən isə 335-i xaricdə dərc olunub. Xaricdə dərc olunmuş məqalələrdən 80-i isə “Clarivate Analytics” (əvvəlki adı “Thomson Reuters”) yüksək impakt faktorlu jurnallarda dərc olunub. Elmi-tədqiqat istiqamətlərinin düzgün müəyyənləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi, elmi-texniki potensialın qorunub saxlanılması və inkişaf etdirilməsi, yüksək ixtisaslı kadrların hazırlanması, elmi tədqiqatların əlaqələndirilməsi, elmi araşdırmaların ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafına yönəldilməsi isə gələcək perspektiv kimi diqqətə çatdırılıb. Rektor universitetin “Elmi əsərlər” jurnalının “Web Of Science” də indeksləşməsi bazasına daxil olmağını gələcək fəaliyyət istiqaməti kimi önə çəkib.

Clarivate Analytics təşkilatının Azərbaycan, Gürcüstan və Ukrayna üzrə nümayəndəsi Sevinc Cəfərova təlimin məqsədindən danışıb, gələcək əməkdaşlığın perspektivlərinə toxunub.



“Müasir elmi-tədqiqatçılar üçün informasiya vasitələri” mövzusunda Clarivate Analytics təşkilatının Təhsil proqramları üzrə direktoru Valentin Boqorov qeyd edib ki, 2015-ci ildə Təhsil Nazirliyi ilə dünyanın ən böyük elektron elmi-analitik informasiya bazası olan “Clarivate Analytics” (əvvəlki adı “Thomson Reuters”) şirkəti arasında əməkdaşlıq sazişi imzalanıb və hazırda Azərbaycanın 40 ali təhsil müəssisəsi “Web of Science” elmi platformasına çıxış əldə edib. Vurğulanıb ki, son 5 ildə Azərbaycan alimlərinin impakt faktorlu jurnallarda çap olunmuş məqalələrinin ölkə üzrə ümumi sayı 74 faiz artıb, ali təhsil müəssisələri üzrə müvafiq göstərici 88 faiz təşkil edib. “Web of Science” elmi bazasında 2017-ci ildə 1160 elmi-tədqiqat işi qeydə alınıb ki, bu da son 25 ildə Azərbaycan üzrə publikasiya sayında rekord göstəricidir. Həmin məqalələrin təxminən 43 faizi ali təhsil müəssisələrinin payına düşüb. “Web of Science” bazasına daxil olan məqalələrin artım dinamikasına görə Azərbaycan son 3 ildə Cənubi Qafqaz ölkələri arasında davamlı olaraq 1-ci yerdə qərarlaşıb. 2015-ci ildə Azərbaycandan cəmi 2 jurnal “Web of Science” bazasında indeksləşdirilmişdisə, 2017-ci ildə bu göstərici 7-yə çatıb. 2018-ci ildə isə lider olub.

Şirkət təmsilçisi qeyd edib ki, “Clarivate Analytics” şirkəti ilə Azərbaycan ali təhsil müəssisələri arasında əməkdaşlığın növbəti 3 il ərzində davam etdirilməsinə dair qəbul edilmiş qərar, həmçinin Təhsil Nazirliyi ilə “Clarivate Analytics” şirkəti arasında 2018-2021-ci illəri əhatə edən əməkdaşlıq üzrə Fəaliyyət Planı Azərbaycanda elmin inkişafına böyük təkan verəcək. Sonra Təhsil proqramları üzrə şöbənin rəhbəri Valentin Bogorov “Web of Science” bazasından istifadə qaydaları, bu şəbəkənin məlumat bazasında yerləşən elmi məqalələr onlardan istifadə yolları, elmi nəşrlər barədə slaydlar vasitəsilə ətraflı çıxış edib. V.Boqorov hər kəsi bütövlükdə bu qurumla sıx əlaqələr qurmağa dəvət edib.

Sonda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru Azad Novruzov, “Naxçıvan” Universitetinin rektoru, filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyeva mövzu ətrafında çıxışlar ediblər.



## ONLAYN SEMİNAR SİMULYASİYA

Naxçıvan Dövlət Universiteti Tibb fakültəsində “Yenidoğulmuşlar, onların qiymətləndirilməsi, kritik hallardan çıxarılma üsulları” adlı onlayn seminar simulyasiya keçirilib.

Ümumi təbabət və tibbi klinik fənlər kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Gültəkin Əliyevanın rəhbərliyi və təşkilatçılığı ilə keçirilən simulyasiya universitetin rəsmi (ndu.edu.az) facebook səhifəsi üzərindən canlı yayınlanıb. “Müalicə işi“ ixtisası üzrə IV kurs tələbələrinin təqdimatında olan simulyasiya 3 hissədən ibarət olub. I hissədə vaxtında və vaxtından əvvəl doğulmuşlar, az və çox çəkili, ölü və diri yenidoğulmuşlar haqda ətraflı məlumat verilib. II hissədə yenidoğulmuşların qiymətləndirilməsi, göbək ciyəsinin kəsilməsi həm video material, həm də simulyasiya üzərində izah olunub. III hissədə isə Apkar şkalası üzrə aşağı bal alanlar, az həyat qabiliyyəti olan yenidoğulmuşların canlandırılması, venadaxilinə dərman preparatlarının yeridilməsi üsulları əyani sürətdə göstərilib. Yenidoğulmuşun bələnməsi simulyator üzərində əyani göstərildikdən sonra nəticələr və tövsiyyələr dəyərləndirilib, suallar cavablandırılıb.

## TİBB FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ BEYNƏLXALQ TİBB MƏRKƏZİ HƏKİMİNİN CƏRRAHİ ƏMƏLİYYATINI ONLAYN İZLƏYİBLƏR

Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin həkim, rezident və tələbələri “Qarıngərmə əməliyyatı – abdomenoplastikanın icrası və sonrakı dövrün izahı” adlı cərrahi əməliyyatda onlayn iştirak ediblər. İnternational Medical Center 2 (Beynəlxalq Tibb Mərkəzi) klinikasının baş həkimi və ümumi cərrahı Elvin Əliyevin həyata keçirdiyi əməliyyat facebook sosial şəbəkəsi üzərindən canlı yayınlanıb.





2 saatdan artıq davam edən canlı yayın izləyicilər tərəfindən maraqla qarşılanıb. Koordinasiyası və canlı videotəqdimatı tibb fakültələrinin tələbələri tərəfindən təşkil edilən onlayn əməliyyatda müəllim və tələbələrin sualları da cavablandırılıb.

Qeyd edək ki, 2005-2011-ci illərdə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin “Pediatriya” ixtisasında təhsil alan Elvin Əliyev 2011-2016-cı illərdə Azərbaycan Tibb Universitetində “Ümumi cərrahiyyə” ixtisası üzrə rezidentura təhsili alıb. Doktor Elvin Əliyev plastik cərrahiyyə, qarın gərmə, body lifting üzrə Türkiyədə ixtisas kursunda olub. Plastik cərrahiyyədə daha çox qarın gərmə əməliyyatları ilə məşğul olan həkim ölkədə ən çox bu əməliyyatları edən həkimlərin siyahısındadır. İndiyədək minlərlə qarın gərmə, abdominoplastika əməliyyatları icra edən Elvin Əliyev estetik-plastik cərrahiyyə üzrə ixtisaslaşıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# EKOLOJİ TARAZLIĞIN QORUNUB SAXLANMASINA DAİR ONLAYN RESPUBLİKA ELMİ KONFRANSI

Naxçıvan Dövlət Universitetində "Ekoloji tarazlığın qorunub saxlanılmasına müasir baxış : Problemlər, faktlar, təkliflər" mövzusunda onlayn respublika elmi konfransı keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən universitetin rektoru Elbrus İsayev bildirib ki, ölkəmizdə iqtisadiyyatın inkişafı və əhalinin sosial-mədəni səviyyəsinin yüksəldilməsi ilə yanaşı, təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji tarazlığın qorunması dövlətin daim diqqət mərkəzindədir. Bununla əlaqədar olaraq son illər ekologiyaya, təbiəti mühafizəyə və təbii ehtiyatlardan səmərəli istifadəyə dair bir sıra normativ hüquqi aktlar qəbul edilib, təbiətin qorunması və sağlamlaşdırılması sahəsində mühüm praktiki addımlar atılıb. Dövlət başçısının Sərəncamı ilə 2010-cu ilin ölkəmizdə "Ekologiya ili"elan edilməsi, həmin ildən başlayaraq beynəlxalq ekologiya sərgilərinin keçirilməsi ekoloji problemlərin həllinə göstərilən diqqətin daha bir ifadəsidir. Muxtar respublika ərazisində də ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir. Rektor universitetdə "Ekologiya mühəndisliyi", "Meliorasiya və su təsərrüfatı tikindisliyi mühəndisliyi" ixtisasları üzrə bakalavr, magistr, doktorant hazırlığının həyata keçirilməsindən danışıb. Diqqətə çatdırılıb ki, ali təhsil ocağında yaradılan müasir tədris şəraiti gələcək təcrübələrin, tədqiqatların aparılması üçün mühüm elmi, təcrübi əhəmiyyətə malikdir.

"Azərbaycanın su ehtiyatlarının və iqlim dəyişmələrinin dayanıqlı inkişafa təsiri" adlı çıxışında AMEA Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov qeyd edib ki, Azərbaycan da iqlim dəyişmələrinin təsirinə məruz qalan ölkələr siyahısındadır. Su ehtiyatlarının azalmasının iqlim dəyişmələrinə təsiri olduğunu qeyd edən akademik gələcəkdə bu amilin çaylara öz təsirini göstərəcəyini qeyd edib. Amma, ölkəmizdə iqlim dəyişmələrinin Azərbaycanın təbiətinə, insanlara təsirinin azaldılması üzrə tədbirlər müəyyənləşdirilib. Akademik vurğulayıb ki, gələcəkdə hər bir vətəndaş sudan səmərəli istifadə etməli, su ehtiyatının tükənməsinə yol verilməməlidir. Bunun üçün çaylar mühafizə olunmalı, çayların ekoloji axını bərpa olunmalı, yaşıl texnologiyalardan, eyni zamanda suya qənaetedici texnologiyalardan istifadə edilməli, sudan qənaətlə, lazım gəldikdə təkrar istifadə edilməlidir



AMEA-nın müxbir üzvü, Torpaq və Aqrokimya İnstitutunun direktoru, aqrar elmlər üzrə elmlər doktoru, professor Əlövsət Quliyev "Naxçıvan Muxtar Respublikasında torpaq ehtiyatlarından istifadə zamanı suvarma su problemləri" adlı çıxışında qeyd edib ki, muxtar respublikada relyefin cənuba doğru meylliyi, günəş radiasiyasının çox olması, buludsuz günlərin çoxluğu, fəal temperaturun yüksəlişi, yağıntının azlığı suvarmanın daha çox istifadə edilməsinə gətirib çıxarır. Bütün bunlar isə Naxçıvanda su ehtiyatlarından son dərəcə diqqətlə istifadə etməyə, hər damcı suyu dəyərləndirməyə gətirib çıxarır. Vurğulanıb ki, suvarma problemləri bir çox üsulla həll olunduğundan qapalı suvarma şəbəkəsi, subartezian quyularının və kəhrizlərin gücündən geniş istifadə olunur. Muxtar respublikada sudan səmərəli istifadə olunması, torpaqların münbitliyinin qorunması, şoranlaşma və eroziyaya qarşı mübarizə aparılması, relyefi müxtəlif olan ərazilərdə düzgün suvarma tədbirlərinin icra edilməsi məqsədilə 2007-ci ildən damcı üsulu ilə suvarma sisteminə üstünlük verilir. Müsbət haldır ki, son dövrlər muxtar respublikada xeyli bərpa işləri aparılıb, yeni-yeni meyvə bağları və meşəparklar yaradılıb. Naxçıvan şəhərinin özündə salınmış xeyli parklar və yaşıllıqlar nəticəsində bura MDB ölkələri içərisində təmiz şəhərlər siyahısına düşüb.

"Coğrafiya" kafedrasının müdiri, coğrafiya üzrə fəlsəfə doktoru, dosent Əli Həsənovun "Təbiəti mühafizənin inkişaf tarixindən", Ekoloji və Təbii Sərvətlər Nazirliyinin "Ətraf mühit və təbii sərvətlərdən istifadənin dövlət nəzarəti" şöbəsinin müdiri Azər Məmmədovun "Naxçıvan Muxtar Respublikasında ekoloji tarazlığın qorunub saxlanılmasının perspektivləri" adlı çıxışları dinlənilib.



# 26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ ONLAYN SOLO KONSERT

Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsi Xalq çalğı alətləri kafedrasının müəllimi, Prezident mükafatçısı Sərxan Abdullayevin 26 iyun Silahlı Qüvvələr gününə həsr olunmuş solo konserti keçirilib. Fakültənin müəllimlərinin müşayiət etdiyi konsert universitetin rəsmi facebook üzərindən canlı yayımlanıb. Azərbaycan bəstəkarları - C.Cahangirov, E.Mansurov, S.Rüstəmov və digər mahnılardan ibarət konsertdə bir-birindən gözəl ifalar səsləndirilib.

Sonda Azərbaycan Respublikasının Əməkdar artistləri Gülyanaq Fərzəliyeva, Tural Nəcəfov, universitetin yetirməsi İlkin Abdullayevin ifasında "Azərbaycan" mahnısı ifa edilib.

Konsert dinləyən hər kəsdə xoş ovqat yaradıb.

# "KİMYA" LABORATORİYASINDA SƏRBƏST YODUN ALINMASI TƏCRÜBƏSİ APARILIB

Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin "Kimya" laboratoriyasında növbəti onlayn təlim keçirilib.

Kimya elminin bir bolməsi olan "Fiziki-kimya" fənninə həsr olunan təlimi Naxçıvan Muxtar Respublikasının Əməkdar Müəllimi, universitetin "Kimya" kafedrasının müəllimi Akif Əliyev aparıb. Kimyəvi təcrübə "Yodid turşusunun hidrogen peroksidlə oksidləşmə reaksiyasının sürət sabitinin təyini" mövzusu əsasında təşkil olunub. Təcrübədə sərbəst yodun alınması prosesi izlənilib və nəticə dəfələrlə müşahidə edilib. "Kimya" ixtisası üzrə III kurs tələbələrinin asistentlik etdiyi təcrübənin nəticələri lövhədə qeyd edilib və hesablanıb.



Universitetin "Kimya" kafedrasının müdiri Sevinc Kərimova bildirib ki, artıq laborator təcrübələrin keçirilməsi universitetdə bir ənənə halını alıb. Tələbələrin məlum səbəbdən dərslərdən geri qalmamalarını təmin etmək üçün bu təcrübələrin əhəmiyyəti vurğulanıb. Diqqətə çatdırılıb ki, yaradılan imkanlardan istifadə gələcəkdə elmi-tədqiqat işlərində də faydalı əhəmiyyətə malikdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏKDAR ARTİSTİ MALİK MANSUROV KONSERVATORİYANIN TƏLƏBƏLƏRİNƏ ONLAYN USTAD DƏRSİ KEÇİB

Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsi "Xalq çalğı alətləri" kafedrasında onlayn ustad dərsi keçirilib. "Bayatı Şiraz muğamı" mövzusunda onlayn dərsi Azərbaycan Respublikasının Əməkdar artisti, Azərbaycan Milli Konservatoriyasının "İnstrumental muğam" kafedrasının müdiri, dosent, Malik Mansurov keçib. 70 nəfər müəllim və tələbənin iştirak etdiyi seminarda universitetin İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov giriş sözü ilə çıxış edib. Ali təhsil ocağında keçirilən onlayn dərslərin müəllim və tələbələrin təcrübəsində artan rolu haqda məlumat verilib.

Azərbaycan Respublikasının əməkdar artisti Malik Mansurov qeyd edib ki, muğam sözü iran-ərəb-türk dilində işlədilən "məqam" sözündən yaranıb. "Məqam" sözü simli alətlərdəki pərdə mənasına gəlir. Bildirilib ki, bu janr təxminən XIV əsrə qədər Yaxın Şərq xalqlarının vahid musiqi janrı olub, lakin sonralar baş verən ictimai-siyasi dəyişikliklər səbəbindən muğam xalqlara uyğun parçalanıb. "Bayatı- Şiraz" muğamı haqqında geniş məlumat verən əməkdar artist vurğulayıb ki, yalnız XIX əsrin sonlarından müstəqil olan muğam növü əvvəllər "Bayatı-İsfahan" dəstgahı kimi tanınıb. Bildirilib ki,"Bayatı-Şiraz" muğamı öz gözəl, axıcı melodikasına və dərin təsir qüvvəsinə görə musiqiçilər tərəfindən çox zaman "ərusi-musiqi" ("musiqinin gəlini") adlandırılır.

Sonda mövzu ətrafında çıxışlar olub və seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.





# FORTEPİANO KAFEDRASININ ONLAYN HESABAT KONSERTİ

Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsi Fortepiano kafedrasının onlayn hesabat konserti keçirilib. Universitetin rəsmi facebook səhifəsindən canlı yayımlanan konsertin çoxsaylı izləyicisi olub. Konsertdə ilk öncə sözləri İsa Həbibbəyli və musiqisi Səidə Məmmədovaya məxsus "Naxçıvanım" mahnısı İlkin Abdullayevin təqdimatında səsləndirilib. Azərbaycan klassik bəstəkarları F.Şüceddinov, V.Adıgözəlov, F.Bədəlbəyli, T.Quliyev, A.Məlikov, E.İbrahimovanın bəstələri tələbə və müəllimlərin ifasında izləyicilərə xoş ovqat bəxş edib. F. Şopen, S. Raxmaninov, L.V.Bethoven, Rikkardo Koçante və digər xarici ölkə bəstəkarlarının əsərlərinin səsləndirildiyi konsertdə ümumilikdə 20 əsər ifa edilib. Pianoda tələbələri kafedranın peşəkar müəllimləri müşayiət ediblər.

Qeyd edək ki, kafedraya Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, professor Səidə Məmmədova rəhbərlik edir. Azərbaycan Respublikasının Əməkdar müəllimi Solmaz Axundova, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi Vidadi Heydərov, Naxçıvan Muxtar Respublikasının Əməkdar Mədəniyyət işçisi Rəna Cəfərova, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimləri Nərminə Qədimova, Zemfira Babayeva kafedrada müəllim kimi fəaliyyət göstərirlər. Tələbələrin məhz bu müəllimlərdən dərs alması və keçirilən konsertlərdə müəllimlərin tələbələri müşayiət etməsi onların gələcək peşə təcrübəsində əhəmiyyətlidir.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# UNİVERSİTETİN MÜƏLLİMİNİN ELMİ MƏQALƏSİ NÜFUZLU JURNALDA DƏRC OLUNUB

Naxçıvan Dövlət Universiteti Informatika kafedrasının baş müəllimi Sevinc Paşayevanın "Direktiv sənəd bazasında informasiya axtarış sisteminin bəzi istismar xarakteristikalarının təyin edilməsi" adlı məqaləsi nüfuzlu "International Journal of Modern Education and Computer Science (IJMECS)" jurnalında nəşr olunub.

Məqalədə Direktiv sənəd bazasında informasiya axtarış sisteminin bəzi istismar xarakteristikalarının təyin edilməsi üçün metod verilib. Sistemin istismarının həyat dövrləri araşdırılıb və sistem işə salındıqdan sonra aşınma və sıradan çıxma dövrü haqda ətraflı məlumat verilib. Məqalə sistemin normal istismar dövründə bəzi istismar xarakteristikalarının araşdırılmasına həsr edilib. Məqalədə sistemin normal istismar dövrü üçün istifadəçilərdən sistemə daxil olan müraciətlərin monitorinqinin təşkili medodu verilib. Monitorinq nəticələrinin araşdırılması vasitəsi ilə sistemdə imtinaların baş vermə ehtimalının paylanma funksiyası və sistemin verilmiş vaxta qədər imtinasız işləməsi ehtimalının paylanma funksiyaları təyin edilib. Yekun olaraq sistemdəki imtinaların intensivliyi və sistemdə birinci imtinaya qədər olan orta vaxt nəzəri və eksperimental yolla təyin edilib.

Qeyd edək ki, jurnal müasir təhsilin və informatika (kompüter) elminin nəzəriyyə və təcrübəsini birləşdirməyə çalışır. İnnovativ ideyalardan spesifik alqoritmlərə və sistemin tam tətbiqinə qədər müasir təhsil və kompüter elmləri sahəsində orijinal və yüksək keyfiyyətli məqalələr dərc edən jurnal müasir təhsil və tətbiqetmələr sahəsində qabaqcıl texnologiyalar üzərində işləyir və "CrossRef", "Google Scholar", "EBSCO", "JournalSeek" kimi elmi bazalarda indeksləşir.

# RƏNGLƏRİN CAZİBƏLİ HARMONİYASI

## RƏSSAMLIQ BİR ENERJİDİR. NƏ QƏDƏR DÜNYA, YAŞAYIŞ, İNSANLIQ VAR, RƏSSAMLIQ DA OLACAQ

Rəssamlıq sənəti çox incə, maraq doğuran, insan ruhunu oxşayan, görmədiyimiz bəzi məqamlarda olan gözəllikləri bizlərə aşılayan gözəl bir sənət növüdür. Rəssamların çəkdikləri əsərlərdə öz ürəklərini təsvir edə biləcəkləri bir ruh insanı onlara qibtə etməyə çağırır. Bugünkü həmsöhbətimiz incəsənətlə sıx bağlı olan, yaradıcılığında qibtə edilən cəhətləri üstünlük təşkil edən sənətşünas rəssam, Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsi Təsviri İncəsənət kafedrasının müəllimi Laman Məmmədovadır.

***Laman müəllim, özünüz haqda məlumat verərdiniz zəhmət olmasa.***

- Mən 1978-ci il iyunun 16-da Naxçıvan şəhərində anadan olmuşam. 1985-1995-ci illərdə Naxçıvan şəhər 3 saylı tam orta məktəbi bitirmişəm. 1995-1999-cu illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində bakalavr, 1999-2001-ci illərdə həmin universitetin magistratura pilləsində təhsil almışam. 2001-ci ildən bugünədək Naxçıvan Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətlə məşğul oluram. Rəssamlıqla lap özümü dərk edəndən məşğul oluram. Rəngkarlıq, qrafika sahəsində fərdi sərgim təşkil olunub. Əsərlərim qarışıq sərgilərdə, bir çox beynəlxalq sərgilərdə nümayiş olunub.

***Özündən çox danışmağı sevməyən rəssama növbəti sualım ünvanlayıram. Rəssamlar özlərini çəkir, yazıçılar özlərini yazır. Azından hisslərini, duyğularını, düşündüklərini çəkir, yazırlar. Hər kəs öz əsərlərinin arxa planında özünü çəkir. Bəs Laman Məmmədova, əsərlərində özünə nə qədər yer ayırır?***

Yaradıcılığımda demək olar ki, təbiət təsvirləri üstünlük təşkil edir. Naxçıvan təbiətinə, gözəl yerlərinə vurğunluğum yaradıcılığımda da öz əksini tapır. Ən çox təbiət mənzərələri, abidələr və natürmortlar çəkirəm.

***Rəssamın işi rənglərlədir, rənglərin sehrinə düşdüyünüz anlar olubmu?***

Bəli, bu anlar çox olub. O qədər əsərimə başım qarışdığı anlar olub ki, hətta səhərin açılmağından, axşamın düşməyindən xəbərim olmayıb. Amma, mən sizə deyərdim ki, elə ən gözəl əsərlər də məhz həmin dövrdə yaranıb. Rəsm ruhumun qidası, ürəyimin nəğməsidir. O qədər bağlıyam ki, bu işə sanki rəsm çəkdiyim zaman rahatladığımın fərqinə varıram. Mən deyərdim ki, rəssam ancaq öz hissləriylə, duyğusuyla rəsm çəkir, sanki öz qəlbini ortaya qoyur.

*Elmi əsərlərim illərin təcrübəsi, zəhmətimdir. Sənətim qəlbimin nəğməsi, ruhumun qidasıdır.*

***Sizin bütün əsərlərinizdə müsbət enerji, xoş əhval var. Belə başa düşülür ki, ancaq əhvalınız yaxşı olanda rəsm çəkirsiz?***

Mənə görə yaradıcılıq könül işidir. Ancaq ürəyim istəyəndə rəsm çəkirəm. Özümü heç vaxt rəsm çəkməyə məcbur etmirəm. Əhvalım yaxşı olmayanda rəsm çəkmədiyim üçün yəqin bu da əsərlərimə sirayət edir.

***Laman Məmmədovanın ən çox sevdiyi tablosu hansıdır?***

Bir qədər çətin sualdır. Hər bir yaradıcı şəxs üçün onun əsərləri onun övladıdır. Mən də hər övladını əzizləyən bir ana kimi əsərlərimə fərq qoya bilmirəm. Əsərlərimin hər hansısa birinin əlimdən çıxanda - ya kimsəyə hədiyyə verəndə, ya sərgi keçirilib bəyənilində bir tərəfdən onlardan ayrıldığım üçün üzülürəm, amma digər tərəfdən isə qürurverici hiss duyuram ki, mənim əsərlərim sevilir, sərgilənir, kimlərsə tərəfindən bəyənilir.

***Hər bir rəssamın bir idealı olur. Siz necə, idealınız olan əsəri çəkmisinizmi?***

Məncə öyrənməyin yaşı yoxdur. İnsan hansı yaşa gəlirsə-gəlsin öyrənməkdən yorulmamalıdır. Mən hələ də öyrənirəm. Düşünürəm ki, hələ idealım olan rəsmi çəkməyimə çox var.

***Məşhur bir rəssamın bu sözləri yadımda qalmışdı. "Təraddüd və sərbəst zaman mənim işim üçün önəmlidir" Laman müəllimə, necə düşünür?***



Yaradıcılığım üçün yeganə şərt mənəvi rahatlığımdır. Mənən rahat olduğum hər zaman mənim işimə yarayır. Başqa heç nə yaradıcılığıma mane olmur. İnsanın daxili dünyası sakit olanda, əhvalı yerində olanda onun əsərləri də müsbət əhval-ruhiyyəyə köklənir.

***Sənətdə təsvir olunan səma deyil, çay deyil, dəniz deyil… Təsvir olunan qəlbin ənginliyidir. Mən deyərdim ki, insanların xarici görünüşü ilə daxili aləminin zənginliyi tam bir vəhdət təşkil edir. Hər kəsin üzünə ən əsası isə gözlərinə baxanda onun qəlbinin nələrə qadir olduğunu kəşf etmiş olursan. Gözəllik özlüyündə təbiətin gizli qanunlarının təzahürüdür. Qəlbinin gözəlliyini tablolalara köçürən Laman Məmmədova üçün gözəllik nə deməkdir?***

- Gözəllik axtarmaq üçün bütün dünyanı gəzsək də bunu birinci növbədə özümüzdə daşımalıyıq, yoxsa onu tapa bilmərik. Gözəllik anlayışına qısa şərh vermək demək olar ki, mümkün deyil. Amma, mənim üçün gözəllik insanın daxili dünyasıdır. Mən gözəlliyi görülən işlər, yaxşı əməllər, insanlara olan münasibətdə görürəm. Daxili dünyası zəngin olan insanın xarici aləmi də istər-istəməz gözümüzdə ucalır.

***Bəzi insanlar incəsənəti başa düşür, bəziləri hiss edir, bəziləri isə həm başa düşür, həm də hiss edir. Laman Məmmədovanın qarşısına hansı insanlar daha çox çıxıb?***

Bəli, məni başa düşən, qiymətləndirən insanlar qarşıma çıxmasaydı mən Laman Məmmədova olmayacaqdım. Bu səviyyəyə çatmağım üçün məni hərtərəfli qiymətləndirən, başa düşən insanlara borcluyam. Xalq rəssamı, professor Hüseynqulu Əliyev isə mənim ustadım, hər zaman dərs ala biləcəyim müəllimimdir. Hüseynqulu müəllim hər zaman mənə deyir ki, "Sənin ən yaxşı tərəfin odur ki, səndə elmlə sənət vəhdətdə birləşib, çünki sənətşünas rəssamsan". Bax, budur mənim yeganə qazancım- müəllimlərimdən xoş sözlər eşitmək, onların xeyir-duasını almaq.

***Laman müəllim, həm də elmi fəaliyyətlə məşğuldur. İncəsənət fakültəsi Təsviri incəsənətin kafedrasının müəllimi kimi incəsənətin sirlərini tələbələrə öyrədir. Laman Məmmədova üçün müəllimlik nə deməkdir?***

- Mən Naxçıvan Dövlət Universitetində artıq 20 ildir ki elmi-pedaqoji fəaliyyətlə məşğul oluram. Ancaq inanırsınız ki, tələbələrlə işləmək mənə o qədər zövq verir, gənclərlə işləmək o qədər həvəsləndirir, ruhlandırır ki, dəslərdə zamanın belə necə keçdiyinin fərqində olmuram. Mən gənc kollektivlə ünsiyyətdə olduqca sanki ruhumun da hər zaman gənc qaldığının fərqinə varıram. Bugünə qədər hər bir dərs prosesini bezmədən, usanmadan tədris etmişəm. Düşünürəm ki, müəllim öz savadı, tədris üsulları ilə bərabər əsl pedaqoq olmalıdır, gələcəyin müxtəlif peşə sahibinə əsl sənət, həyat dərsi verməlidir. Biz də bu yolda savadlı, ixtisasını dərindən bilən və əsl pedaqoq olan müəllimlərdən dərs almışıq və öyrəndiyimiz metodları da bacardığımız qədər tələbələrə aşılayırıq. İxtisasıma dair bir çox kitabların da müəllifiyəm. "Təsviri sənət nəzəriyyəsi", "Miniatür sənəti", Heykəltaraşlıq və rəngkarlıqda insan gözəlliyinin təcəssümü" , " İncəsənət tarixi fənni üçün tədris-metodik vəsait", Almaniyada nəşr olunan "İntibah dövrünün rəssamları" kitablarım nəşr olunub.

***Xalqımızın yaşayış tərzini, tarixini, mədəniyyət və incəsənətini özündə əks etdirən xalçaçılığa dair "Azərbaycan xalçaçılıq sənəti" adlı dərs vəsaitinin də müəllifisiniz. Zəhmət olmasa kitab haqda məlumat verərdiniz?***

Azərbaycanı dünya incəsənəti tarixində tanıdan sahələrin ən önəmlilərindən biri xalça sənətidir. Xalqın sənət süzgəcinin məhsulu olan xalçalar muzeylərin eksponatı, estetik zövqü, məişətin interyer bəzəyi, qiymətli sərvəti olub. Bu el sənətinin yaşadılması istiqamətində mütərəqqi addımlar atılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 2018-ci il aprel ayının 9-da "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Xalqımızın tarixi keçmişinə, milli-mənəvi dəyərlərinə verilən böyük önəmin ifadəsi olan bu Sərəncamlar öz növbəsində xalçaçılıq sənətinin dərindən öyrənilməsi, araşdırılması və təbliği üçün geniş imkanlar yaradır. Ali təhsil müəssisələrinin bakalavr, magistr, həmçinin xalça sənəti ilə maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulan kitab xalçaçılığa dair çoxillik tədqiqatların, dəyərli əsərlərin əsasında tərtib edilmişdir. Kitabda Azərbaycan dekorativ tətbiqi sənət növlərindən, Azərbaycan xalçaçılığı tarixindən məlumat verilib. Xalçaların təsnifatı, Azərbaycan xalçaçılıq məktəbləri Qarabağ, Quba, Təbriz Naxçıvan, Bakı, Gəncə, Şirvan xalçaları özünəməxsus xüsusiyyətlərinə görə ayrılıb. Sonda isə xalçaçı-rəssam Lətif Kərimovun həyat və yaradıcılığına, xalçaçılıq sahəsində gördüyü misilsiz xidmətlərdən məlumat verilib.

***Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəssamlar Birliyinin "Yurdumun rəngləri" festival-müsabiqə ekpozisiyasında sərgilənən əsərlər içərisində sizin də rəsminiz var. Plakat nominasiyası üzrə rəsmdə fərqləndirici yeri tutmusunuz.***

Çəkdiyim rəsmdə sülh simvolu olan göyərçinlərdən "Naxçıvan 95" sözünü yazmışam. Bununla muxtar respublikada sülh, əminamanlıq, firavanlıq, barış olduğunu demək istəmişəm.

***60-dan çox elmi məqalənin, bir çox monoqrafiyaların, dərs vəsaitləri və proqramların, elmi məqalələrin və tədris metodiki vəsaitlərin müəllifi olan Laman Məmmədovanın məqalələri Türkiyədə, Amerika Birləşmiş Ştatlarında, Rusiyada, İngiltərədə, Almaniyada və. s dərc olunmuşdur. Beynəlxalq konfransların iştirakçısı olan Laman müəllim yerli və xarici fəxri fərmanlarla, diplomlarla, 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Milli dəyərlərimizin təbliğat sahəsindəki səmərəli xidmətlərinə görə" diplomla təltif olunmuşdur. Laman Məmmədovanın qarşıda qoyduğu hədəfləri nədən ibarətdir?***

Mən Naxçıvan Dövlət Universitetində işlədiyim üçün həqiqətən fəxr duyuram. Müəllimlik peşəsi mənim üçün çox dəyərli və əvəzsiz bir peşədir. Burada müəllimlərimlə birgə çiyin-çiyinə çalışmaq isə məni sənətə daha da ruhlandırır. Hal-hazırda bir əsər üzərində işləyirəm. Elmi fəaliyyətim də davam edir, yeni tədqiqatlar üzərində çalışıram.

***P. S. Biz də ona yaradıcılıq uğurları arzusuyla bərəcə ayrılırıq təvazökar və üzündən-gözündən mehribanlıq yağan insandan.... Gözlərimizin və qəlbimizin gözəllikləri görməsi və duyması ümidilə rənglərin cazibəli harmoniyasında görüşərik!!!***

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***




Salam, müəllim. Mən böyümüşəm. Ölüm xəbərlərinə alışır qulaqlarım... Bu xəbərlər daha uzaqlardan yox, lap yaxınlardan gəlir. Sonuncu yazdığım şeirdə belə bir misra var idi: "Daha ölümlər də ağlatmır məni..." Elə zənn etmişdim, bütün varlığımla donduğumu, həyatın məni heykələ çevirdiyini sanmışdım. Sizin xəbəriniz gələnə qədər...

Qrup yoldaşımla danışırdım, birdən titrək səslə mesajlara baxmağımı istədi, baxdım... "Hüseyn Həşimli öldü" deyə bir cümlə yazılmışdı. Sizin adınız və ölüm... Heç vaxt bu sözlərin eyni cümlədə işlənə biləcəyi ağlıma gəlməmişdi. Həmin an ölüm acısının nə demək olduğunu anladım. İndiyə qədər qohumlardan, tanışlardan ölümünü eşitdiyim, hətta şahidi olduğum adamlar olub. Amma heç vaxt ölümü bütün ruhumla hiss edə bilməmişdim. Siz bizə tək ədəbiyyatı, həyatı yox, ən sonda ölümü də öyrətdiniz, müəllim.

Tələbələriniz ən doğmasını itirmiş kimi hönkür-hönkür ağladı. Gecələr gözlərə yuxu getmədi, sözlər boğazlarda düyünlənib qaldı, hamı özünü böyük bir yalanın içində hiss edirdi. Hərə bir öz itkisinə üzülürdüsə, bir də Nəqşicahanın, Azərbaycanın, ədəbiyyatın itkisinə üzülürdü. Həyatı, Tanrını, ədaləti sorğuya çəkənlər də az olmadı. Sizi tanımayan adamlar belə sizə olan sevginin qarşısında heyrətlənib qaldı. Bu qədər sevilməyi, könüllər fəth etməyi necə bacardınız, müəllim?! Dünyada savadlı alimlər, müəllimlər çoxdur, amma əksəriyyətinin şəxsiyyəti ilə elmi fəaliyyəti üst-üstə düşmür. Siz isə dünyadakı ən gözəl şeyləri - mənəviyyatı, mədəniyyəti, elmi özündə birləşdirmişdiniz. Mən Naxçıvan Dövlət Universitetini ən çox sizə görə sevdim. Sizin dərsiniz olan günlər universitetə həvəslə gəlirdim. İndiyə qədər sizdən soruşduğum bütün sualların düzgün cavabını vermisiniz. İndi bir sualım olanda soruşmağa kimsəm yoxdur...

Artıq universiteti bitiririk, yoldaşlarla xatirələrdən danışırıq. Bilirsiniz, xoş xatirələrimizin böyük bir qismi sizinlə bağlıdır. Hamımız qürurla deyirik ki,-"Biz Hüseyn Həşimlinin tələbələriyik!" Naxçıvan Dövlət Universitetində Hüseyn Həşimlinin dərs keçdiyi son şanslı tələbələrdən...

Siz bizi dörd il ərzində bircə dəfə belə incitmədiniz. Haradan bilərdik ki, ölümüylə bizi hamıdan çox incidən elə siz olacaqsınız...

Darıxırıq, müəllim... "Ay müəllim" deyə səsləndiyimizdə bütün səmimiliyiniz, içdənliyinizlə "Ay bəli" deməyiniz üçün darıxırıq... Hansısa mövzudan söhbət düşəndə həmin mövzuya uyğun bir hekayə, əhvalat danışmağınız üçün darıxırıq... Bizə "Gələcəyin filoloqları" deyə xitab etməyiniz üçün... Hələ Füzulidən, Nəsimidən, orta əsrlərin adını belə eşitmədiyimiz şairlərindən dediyiniz o qəzəllər... Mühazirə dəftərlərimizi dolduran bir-birindən dəyərli məlumatlar... Masanızın üzərindəki kağızlar da darıxır, axı onlar toplanıb bir kitab olacaqdı...

Bəzən bizə gülməli əhvalatlar danışardınız, indi onları xatırlayanda gözlərimiz yaşarır. Xatirələr həmişə acı verir, müəllim, acısı da, şirini də...

Kitab rəfimin bir gözündə ancaq sizin kitablarınız var. Tək müəllifi olduğunuz kitablar yox, həm də ədəbiyyatşünaslıqla bağlı hədiyyə etdiyiniz başqa kitablar. Hansı kitabdan sizdə iki ədəd olsa, birini mütləq mənə verərdiniz. O kitablar sizin mənə olan inamınızın, güvəninizin ifadəsidir. Məndən bədii, elmi əsərlər yazmağımı gözləyirdiniz, amma indi sizə sizin nəfəsiniz gəlməyən dünyadan məktub yazıram...

Müəllim, indi daha yaxşı anlayıram. Həyatın boyası öz ürəyimizdə gizlənirmiş... Biz də duyğularımızla eyni olan rəngi ürəyimizdən götürüb gözlərimizin önünə çəkirik və bütün dünya o rəngə bürünür. Sevinəndə masmavi, kədərlənəndə qapqara... İndi həyat qaradır, müəllim. Ürəyimdə qaradan başqa bir rəngə əlim çatmır... Elə bilirəm ki, universitetin divarları tozlanıb, siniflərdə kimsəsizlik əyləşib, pillələrdən ölüm yuvarlanır. Bağçadakı bütün güllərdən qərənfil iyi gəlir... İnsanların üzündən təbəssüm oğurlanıb, hamı elə kimisə axtarır. Həmişə ora-bura tələsən adamların yerişi də yavaşıyıb. Tək universitetmi belədir? Yox! Sizinlə yenidən görüşməyi, dərslərinizdə iştirak etməyi həvəslə gözləyən tələbələrin evlərində ümidlər ölür. Keçib getdiyiniz küçələr sanki, ölümlə sulanıb. Kainatın sükutu qulaq batırır... Hələ dostlardan, ailədən danışmıram...

Maksim Qorkinin "Ana" əsərində işarələdiyim cümlələrdən biri də belədir: "Biz kiminsə haqqında "ölübdür" deməyə tələsirik..." "Şirin portağal ağacım"da Zeze də ölümdən danışır, deyir ki,-"Sevməyi dayandırırsan və o insan bir gün ölür". Deməli, ölən insanların hamısı sevilməyən insanlardır. Heç kim sizin ölümünüzə inanmır, müəllim. Qoy elə inanmasınlar, bu qədər sevilən insan necə ölə bilər axı?!

Kimisə itirəndə üzülməyimizlə əslində, bir az eqoist davranmış oluruq. İtirdiyimiz adamdan çox, onsuz qalacağımıza üzülürük. Çünki ölüm qurtuluşdur, azadlıqdır. Həmişə içimizdə çırpınan, uçmağa can atan o varlığın qanadlandığı andır. Ölüm ölənə yox, ölərdən sonra qalana acı verir. Nəfəsimiz kəsildiyi an onunla birlikdə artıq olan bütün yükləri ruhumuzdan atırıq. Azadlıq! Azadlıq!

Amma indi bunlarla təsəlli tapa bilmirəm, müəllim! Çünki yarım qalmış əsərlərinizin, tədqiqatlarınızın olduğunu bilirəm. Onu da bilirəm ki, siz ədəbiyyat üçün bu həyata dözərdiniz, ölümün rahatlığındansa, bu narahat dünyada yaşayıb yenə də ədəbiyyat üçün nələrsə etməyi üstün tutardınız. Amma həyat... Hamı gedir, müəllim... Kimisi dünyanın tozuna, dumanına qarışıb gedir, kimisi də ürəklərə, yaddaşlara axıb gedir... Göy üzü bir gün göy adamlarını canına çəkib qucaqlayır, yerdən qoparır. Ey ədəbiyyat adam, şeir adam, söz adam! Biz üzülürük, canımız yanır... Amma indi siz getdiyiniz yerdə hər şey xoşbəxtdir. Bəlkə də göy üzü, günəş, ay.. Ya da adını bilmədiyimiz başqa bir dünya, sizin kimi nadir insanların toplaşdığı başqa bir məkan...

Müəllim, icazə verin, sizə son sualımı da verim. Deyin də mənə, oralardan dünya necə görünür? Görünür, ya yox?!

**Gülay Tahirli**
***Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə IV kurs tələbəsi***



# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

## 2020-2021-ci tədris ili üçün bakalavriat səviyyəsinə tələbə qəbulu

Burada dünyanın aparıcı universitetlərinin təcrübəsindən yararlanan, müasir texnologiya və innovasiyaların üstünlüklərindən faydalanan, karyerayönümlü tədris və tədqiqat imkanı əldə edə bilərsiniz.

- ✓ Beynəlxalq təhsil mübadilə proqramlarından yararlanmaq imkanları
- ✓ Xarici ölkələrdə 8 həftəlik təcrübə imkanları
- ✓ Azərbaycan və ingilis dillərində tədris
- ✓ Yataqxana və Sosial xidmət mərkəzindən istifadə imkanları
- ✓ Tələbələrin gələcək karyera imkanlarının dəstəklənməsi
- ✓ Müasir universitet şəhərciyi

*Naxçıvan Dövlət Universiteti*

- *Avropa Birliyinin Erasmus+ və Mövlana təhsil mübadilə proqramlarından yararlanmaq imkanı verir*
- *13-dən artıq beynəlxalq təşkilatlarla əməkdaşlıq edir*
- *Avropa, Asiya və Amerikada yerləşən 40-dan çox ölkənin 130-dan çox universiteti ilə əməkdaşlıq edir*
- *Hazırda 9 ölkədən 800 nəfərə yaxın xarici tələbəyə təhsil verir*

### Bakalavriat səviyyəsi üzrə ixtisaslar

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Biologiya müəllimliyi
- Coğrafiya müəllimliyi
- Fizika müəllimliyi
- Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi
- Kimya müəllimliyi
- Musiqi müəllimliyi
- Riyaziyyat müəllimliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Tarix müəllimliyi
- Təsviri incəsənət müəllimliyi
- Texnologiya müəllimliyi
- Xarici dil müəllimliyi (ingilis dili üzrə)
- Xarici dil müəllimliyi (fransız dili üzrə)
- Xarici dil müəllimliyi (alman dili üzrə)
- Xarici dil müəllimliyi (rus dili üzrə)
- Beynəlxalq münasibətlər
- Fəlsəfə
- Hüquqşünaslıq
- Jurnalistika
- Kitabxanaçılıq və informasiya fəaliyyəti
- Tarix
- Tərcümə (ərəb-Azərbaycan dilləri)
- Tərcümə (ingilis-Azərbaycan dilləri)
- Tərcümə (fars-Azərbaycan dilləri)
- Aktyor sənəti
- Bəstəkarlıq
- Dirijorluq (sahələr üzrə)
- İnstrumental ifaçılıq (xalq çalğı alətləri ifaçılığı)
- İnstrumental ifaçılıq (fortepiano)
- İnstrumental ifaçılıq (simli alətlər)
- İnstrumental ifaçılıq (nəfəs alətləri)
- Musiqişünaslıq
- Muzey, arxiv işi və abidələrin qorunması
- Rəngkarlıq
- Vokal sənəti (sahələr üzrə)
- Dövlət və bələdiyyə idarəetməsi
- İqtisadiyyat (tədrisi Azərbaycan dilində)
- İqtisadiyyat (tədrisi İngilis dilində)
- Marketinq
- Menecment
- Mühasibat
- Biologiya
- Coğrafiya
- Fizika
- Kimya
- Riyaziyyat
- Ekologiya mühəndisliyi
- Energetika mühəndisliyi
- Geomatika və geodeziya mühəndisliyi
- İnformasiya texnologiyaları
- Meliorasiya mühəndisliyi
- Memarlıq
- Nəqliyyat mühəndisliyi (sahələr üzrə)
- Baytarlıq təbabəti
- Torpaqşünaslıq və aqrokimya
- Əczaçılıq
- Məşqçilik (sahələr üzrə)
- Sosial iş
- Turizm işinin təşkili
- İctimai səhiyyə
- Stomatologiya
- Tibb




## ÖTƏN SAYDAKI MƏNTİQİ SUALLARIN CAVABLARI:

? Batareyanın qiyməti 1 manat, oyuncağın qiyməti 11 manatdır.

? Otaqda olan I və II lampanı yandırıb 5 dəqiqə gözləyirik. Sonra II lampanı söndürüb otağa daxil oluruq və sönülü lampaların tempraturuna əsasən hansı açarın hansı lampaya aid olduğunu tapırıq.

? 100+1, 99+2, 98+3... bunların hamisin cəmi 101 eləyir və 50 belə rəqəm var 101×50=5050

? Slenqdən fərqli olaraq, fonetik və qrammatik sistemi olmayan, əsasən qara camaatın istifadə etdiyi bu dili Viktor Hüqo Səfillərin dili yaxud arqo dil adlandırmışdı.

? Mühafizəçi gecə yatdığı üçün işdən qovulmuşdur.

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi
Telefonlar: 544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 500

Redaktor: Samir Tarverdiyev
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.